


# “Şəhidlər ölməz” adlı tədbir keçirildi

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarımızı tanımaq və tanıtmaq məqsədilə keçirilən "Şəhidlər ölməz" adlı tədbirlər silsiləsindən şəhid baş gizir Mehman Yusifovun doğum gününə həsr olunmuş növbəti anım mərasimi oldu.

Tədbirdə şəhidin yaxınları, döyüş yoldaşları və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Baş leytenant Elnarə Cavadova Azərbaycan Ordusunun zəfər yürüşündən söz açaraq bildirdi ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu cəmi 44 gün ərzində 28 il düşmən əsarətində olan tarixi torpaqlarımızı işğaldan azad etdi. “Vətən müharibəsi göstərdi ki, Azərbaycan igidlər diyarı, qəhrəmanlar ölkəsidir. Bu savaş bizlərə cəsarətin, hünərin, qorxmazlığın, şərəfin, namusun, qeyrətin, fədakarlığın simvolları, millətimizin, dövlətimizin qüruru, iftixarı olan neçə-neçə oğulları tanıtdırdı. Belə oğullardan biri də şəhid baş gizir Mehman Yusifovdur.

Mehman Yusifov 1979-cu il iyulun 18-də Tovuz rayonunun Bayramlı kəndində anadan olub. 1985-ci ildə Tovuz rayon Elşad Orucov adına Bayramlı kənd tam orta məktəbinin birinci sinfinə gedib, 1996-cı ildə həmin məktəbin on birinci sinfini bitirib. 1998-ci ildə həqiqi hərbi xidmətə çağırılan Mehman Yusifov 2000-ci ildə xidmətini başa vuraraq tərxis olunub. Daha sonra 2002-ci ildə yenidən Azərbaycan Silahlı Qüvvələrinin sıralarına qoşulub.

2002-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin nəzdindəki "Gizir hazırlığı kursu"na daxil olan Mehman Yusifov on səkkiz illik xidməti ərzində çoxsaylı əməliyyatlarda iştirak edib. 2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olub. 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsinin ilk günündən cəbhədə olan baş gizir M.Yusifov 5 oktyabrda Cəbrayıl uğrunda gedən döyüşülərə qatılır və qəhrəmancasına şəhid olur. Oktyabrın 6-sı son mənzilə yola salındı".



Tədbirin aparıcısı Gülxar Məmmədova bildirdi ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunan ərazilərin azad olunmasında qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Mehman Yusifov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib...

Şəhidin anası Gülsüm xanım, qardaşı Şahin, həyat yoldaşı Günel, bacıları Arzu və Zəkiyyə Yusifovalar Mehmanla bağlı xatirələrini bölüşdülər, dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildirdilər.

Döyüş yoldaşları çıxışlarında Mehmanın necə cəsur, mərd, qorxubilməz oğul olmasını vurğuladılar.

Tədbirdə şəhidin şəxsi əşyaları, fotoları, fəxri fərman və medalları sərgiləndi.

Tədbirin bədii hissəsində şəhidə həsr olunmuş videoçarx nümayiş olundu. Sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi vətənpərvərlik mövzusunda musiqilərlə çıxış etdi.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**